# Yanğın təhlükəsizliyi sahəsində Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişikliklər edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

«Yanğın təhlükəsizliyi haqqında» Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli, 106 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. «Yanğın təhlükəsizliyi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 25 iyul tarixli, 619 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997-ci il, № 5, maddə 416; 2004-cü il, № 6, maddə 437; 2005-ci il, № 4, maddə 303; 2007-ci il, № 6, maddə 601) 2-ci bəndində aşağıdakı dəyişikliklər edilsin:

1.1. ikinci-yeddinci abzaslar aşağıdakı redaksiyada verilsin:

- *«Yanğın təhlükəsizliyi haqqında» Azərbaycan Respublikası Qanununun 4-cü maddəsinin birinci hissəsinin 8-ci, 14-cü və 18-ci bəndlərində, 9-cu maddəsinin beşinci hissəsində (ikinci halda) və 29-cu maddəsinin üçüncü hissəsində (ikinci halda) nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;*
- *həmin Qanunun 4-cü maddəsinin birinci hissəsinin 2-ci, 7-ci, 9-cu, 10-cu və 12-ci bəndlərində, 17-ci maddəsinin üçüncü hissəsinin ikinci cümləsində, 22-ci maddəsinin ikinci və üçüncü hissələrində, 27-ci maddəsinin altıncı hissəsində (ikinci halda) nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın və 19-cu maddəsində (birinci halda) nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;*
- *həmin Qanunun 4-cü maddəsinin birinci hissəsinin 1-ci, 3-cü, 4-cü, 6-cı, 11-ci, 13-cü, 15-ci və 16-cı bəndlərində, 6-cı maddəsinin ikinci hissəsinin 1-ci, 8-10-cu bəndlərində, 7-ci maddəsinin ikinci hissəsinin 2-ci, 6-cı və 7-ci bəndlərində, 9-cu maddəsinin birinci-dördüncü hissələrində və beşinci hissəsində (birinci halda), 10-cu maddəsinin birinci hissəsinin birinci cümləsində (ikinci halda) və ikinci hissəsində, 11-ci maddəsinin birinci hissəsinin ikinci cümləsində, 14-cü maddəsinin üçüncü və dördüncü hissələrində, 15-ci maddəsinin üçüncü hissəsində (ikinci halda), 16-cı maddəsinin üçüncü hissəsində, 18-ci maddəsinin birinci və dördüncü hissələrində, 19-cu maddəsində (ikinci halda), 20-ci maddəsinin ikinci hissəsində, 21-ci maddəsinin ikinci hissəsində, 24-cü maddəsinin beşinci hissəsində, 25-ci maddəsinin birinci hissəsinin ikinci cümləsində, ikinci və üçüncü hissələrində, üçüncü hissəsinin 10-cu bəndində, dördüncü və beşinci hissələrində,*

*27-ci maddəsinin birinci-üçüncü hissələrində, beşinci hissəsinin birinci cümləsində (birinci və ikinci halda) və ikinci cümləsində, altıncı hissəsində (birinci halda), yeddinci hissəsində (birinci və ikinci halda), IV fəslinin adında, 28-ci maddəsinin adında, birinci-dördüncü hissələrində, 29-cu maddəsinin adında, birinci hissəsində, ikinci hissəsində (birinci və ikinci halda), üçüncü hissəsində (birinci halda) və dördüncü hissəsində, 30-cu maddəsinin adında, birinci-üçüncü hissələrində, 31-ci maddəsinin adında və birinci hissəsində, 32-ci maddəsinin adında və birinci hissəsində, 33-cü maddəsinin adında, birinci və ikinci hissələrində, 34-cü maddəsində, 35-ci maddəsinin adında və birinci hissəsində (birinci və ikinci halda) nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın və 11-ci maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi həyata keçirir;*

- *həmin Qanunun 4-cü maddəsinin birinci hissəsinin 20-ci bəndində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın və 24-cü maddəsinin dördüncü hissəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları həyata keçirir;*
- *həmin Qanunun 5-ci maddəsinin adında və birinci hissəsində, 10-cu maddəsinin birinci hissəsinin birinci cümləsində (birinci halda), 15-ci maddəsinin üçüncü hissəsində (birinci halda) və 16-cı maddəsinin birinci hissəsinin ikinci cümləsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini mərkəzi və yerli icra hakimiyyəti orqanları həyata keçirir;*
- *həmin Qanunun 20-ci maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi Dövlət Statistika Komitəsi ilə razılaşdırmaqla həyata keçirir;»;*

1.2. səkkizinci, doqquzuncu abzaslar çıxarılsın və onuncu abzas səkkizinci abzas hesab edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 19 aprel tarixli, 394 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 4, maddə 326; 2008-ci il, № 2, maddə 50, № 4, maddə 260, № 6, maddə 508; 2009-cu il, № 9, maddə 687; Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 21 dekabr tarixli, 195 nömrəli Fərmanı) ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi haqqında Əsasnamə»də aşağıdakı dəyişikliklər edilsin:

2.1. 8.2.8-ci bənddə *«xidmətlərinin»* sözü *«bölmələrinin»* sözü ilə əvəz edilsin;

2.2. 8.42-ci bənddə *«könüllü və idarədənkənar yanğınsöndürmə dəstələrinin»* sözləri *«idarədənkənar və könüllü yanğından mühafizə bölmələrinin (dəstələrinin)»* sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 29 dekabr tarixli, 511 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 12, maddə 1058; 2008-ci il, № 11, maddə 980, № 12, maddə 1069) ilə təsdiq edilmiş «Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidməti haqqında Əsasnamə»də aşağıdakı dəyişikliklər edilsin:

3.1. 7.2-ci və 8.11-ci bəndlərdə *«norma və qaydalarının»* sözləri *«sahəsində normaların, standartların və qaydaların»* sözləri ilə əvəz edilsin;

3.2. 8.5-ci bənddə *«xidmətlərinin»* sözü *«bölmələrinin (dəstələrinin)»* sözləri ilə əvəz edilsin;

3.3. 9.3-cü bənddə *«qaydalarının»* sözü *«sahəsində normaların, standartların və qaydaların»* sözləri ilə əvəz edilsin;

3.4. 9.4-cü bənddə *«xidməti»* sözü *«bölməsi (dəstəsi)»* sözləri ilə, *«orqanlarının»* sözü *«qurumlarının»* sözü ilə əvəz edilsin.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, 10 fevral 2010-cu il***

***№ 221***